# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 061 (7471)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

14 avqust 2026-cı il.
Qiyməti 1 manat

## Sülh insanlığın rəmzidir



5

## Naxçıvanın yeni inkişaf dövrü başlayır!



2

*İlham Əliyev: "Bundan sonra da lazımi qərarlar veriləcək və Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı təmin ediləcək"*

# İrəvanın yeni siyasi kursu kimə qarşıdır?




7

## Xarici dil öyrənmək üçün ən uyğun yaş hansıdır?



8

## Abort: tibbi zərurət, qadın seçimi, yoxsa hüquqi məsuliyyət?



6

## "TRIPP Azərbaycanın regional nəqliyyat siyasətində yeni səhifə aça bilər"




4

## Demensiyanı ləngitmək mümkündür



7

## Prezident bölgənin gələcək siyasi-iqtisadi xəritəsini elan etdi!



4

# Naxçıvanın yeni inkişaf dövrü başlayır!

***Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf konsepsiyasının ardıcıl şəkildə həyata keçirilməsi ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da davamlı olaraq reallaşıb. Naxçıvan Muxtar Respublikasının inkişafı, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, infrastrukturun qurulması məsələləri Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin diqqət mərkəzində olub və bu gün də belədir.***

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı olduğu dövrdə muxtar respublikaya dəfələrlə səfəri Naxçıvanın inkişafına böyük təkan olub. Dövlətimizin başçısı bu səfərlər çərçivəsində 100-ə yaxın təhsil, səhiyyə, idman və mədəniyyət müəssisəsinin, istehsal sahəsinin və hərbi təyinatlı obyektin açılışlarında iştirak edib. Naxçıvanda aparılan abadlıq-quruculuq işləri, müasir infrastrukturun yaradılması, nəqliyyat-kommunikasiya xətlərinin çəkilişi işləri bilavasitə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə həyata keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri mühüm hadisələrlə və gələcəyə hesablanmış mesajlarla yadda qaldı. "Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişaf edir". Bunu Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvanda Azərbaycan Televiziyasına müsahibəsində bildirib. Prezident kimi Naxçıvana 17 dəfə səfər etdiyini deyən dövlətimizin başçısı vurğulayıb: "Hər səfərimin də böyük mənası və gözəl nəticələri vardır. Bu illər ərzində bir çox önəmli layihələr icra olundu, Naxçıvanın ümumi inkişafı təmin edildi".



## İlham Əliyev: "Bundan sonra da lazımi qərarlar veriləcək və Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı təmin ediləcək"










Azərbaycan Prezidenti İlham Əliyevin 11 avqust 2026-cı ildə Naxçıvan Muxtar Respublikasına səfəri və səfər çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibə Naxçıvanın gələcək inkişaf strategiyasının əsas istiqamətlərini müəyyən edir. Dövlət başçısının müsahibəsində səsləndirdiyi fikirlər təkcə muxtar respublikada həyata keçirilən layihələrin deyil, eləcə də Naxçıvanın Azərbaycanın ümumi inkişaf strategiyasında, Cənubi Qafqazın yeni geosiyasi və geoiqtisadi reallıqlarında yerini göstərmiş oldu.

Dövlətimizin başçısının müsahibədə Naxçıvanın gələcəyi, enerji, nəqliyyat, regional bağlantılar, Zəngəzur dəhlizi, Ermənistanla münasibətlər və Azərbaycanın qarşısında açılan yeni imkanlarla bağlı fikirləri göstərdi ki, Naxçıvan artıq yalnız Azərbaycanın ayrılmaz hissəsi kimi deyil, yeni regional geosiyasi və iqtisadi düzənin mühüm qovşaqlarından biri kimi nəzərdən keçirilir. Zəngəzur dəhlizinin reallaşması Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa bağlantı yaradacaq və bu bağlantı daha geniş beynəlxalq nəqliyyat şəbəkəsinin mühüm hissəsinə çevriləcək. Prezidentin müsahibəsində Ermənistanla bağlı səsləndirdiyi fikirlər də yeni regional reallığın mahiyyətini göstərir.

### "BUGÜNKÜ TƏDBİRLƏR DƏ BİR NÖV GÖRÜLƏN İŞLƏRİN DAVAMIDIR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Naxçıvan şəhərində 518 mənzildən ibarət sosial evlər kompleksinin təməlini qoyub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Naxçıvan şəhərində 518 mənzildən ibarət sosial evlər kompleksinin təməlini qoyub. Naxçıvan şəhərində çoxmənzilli yaşayış binalarının (güzəştli mənzillər) tikintisi üçün 5 hektara yaxın torpaq sahəsi ayrılıb. Kompleksdə 6 və 7 mərtəbəli 16 bina inşa ediləcək. Burada 93 birotaqlı, 37 ikiotaqlı, 351 üçotaqlı, 37 dördotaqlı olmaqla, ümumilikdə 518 mənzil olacaq. Yaşayış Kompleksində sakinlərin rahatlığı üçün zəruri infrastruktur yaradılacaq. Burada uşaq bağçasının və digər iaşə obyektlərinin tikintisi nəzərdə tutulur. Kompleks elektrik enerjisi, qaz, su və çirkab suların axıdılması sistemləri ilə təchiz ediləcək. Ərazidə yolların və səkilərin salınması, abadlaşdırma və yaşıllaşdırma işlərinin görülməsi nəzərdə tutulub.

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz getdikcə daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin nəticəsində ölkəmizin qeyri-neft sənayesi də dinamik inkişaf edir, qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələri yaradılır. Hazırda bu istiqamətdə aparılan işlər ölkənin bütün regionlarında uğurla davam etdirilir. Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb.

***Ardı Səh. 3***

# Naxçıvanın yeni inkişaf dövrü başlayır!





Əvvəli-Səh-2

Dövlət proqramlarının icrası istiqamətində görülən işlər nəticəsində ölkənin hər yerində genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib. Cənab İlham Əliyevin vurğuladığı kimi, "əsas məqsədimiz Azərbaycanın inkişafını daha da sürətləndirməkdir, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır və biz buna nail ola bilmişik."

Prezidentin Naxcıvana səfəri zamanı Naxçıvandakı "Əcəmi seyrangahı" istirahət kompleksində memar Əcəmi Naxçıvaninin abidəsinin də açılışı olub. Bu il Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyi tamam olur. Prezident İlham Əliyev Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi, həmçinin onun abidəsinin ucaldılması barədə ötən il Sərəncam imzalayıb. Abidə kompleksi böyük Azərbaycan memarı Əcəmi Naxçıvaninin zəngin memarlıq irsini daha müasir yanaşma əsasında təqdim etmək məqsədilə yaradılıb.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Əcəmi Naxçıvaninin 850 illik yubileyi 1976-cı ildə Azərbaycanda təntənəli şəkildə qeyd olunub. Hazırda isə onun 900 illiyinin UNESCO çərçivəsində qeyd edilən yubileylər siyahısına daxil edilməsi bütövlükdə çoxəsrlik mədəni zənginliklərimizin beynəlxalq səviyyədə daha geniş təbliğində vacib rol oynayır. Bütün bunlarla yanaşı, dövlət başçısı "Naxçıvan" Mehmanxana Kompleksinin təməli qoyub, Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan komando hərbi hissələrinə Döyüş bayraqlarının verilməsi mərasimində, Naxçıvan Regional DOST Mərkəzinin açılışını edib. Prezident İlham Əliyev Naxçıvanda elektrik mühərrikli yeni avtobuslara baxıb, dəmir yolu infrastrukturunda aparılan yenidənqurma işləri ilə tanış olub. "Bugünkü tədbirlər də bir növ görülən işlərin davamıdır və təbii ki, bundan sonra da lazımi qərarlar veriləcək və Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı təmin ediləcək", - deyə Prezident bildirib.

### "NAXÇIVANIN MÜDAFİƏ POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏSİ PRİORİTET MƏSƏLƏLƏR SIRASINDA İDİ"

Dövlət başçısının "Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir" fikri Azərbaycanın son illərdə formalaşdırdığı güclü müdafiə potensialının regional təhlükəsizlik müstəvisində yaratdığı reallığı ifadə edir.

Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvanda Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan əməliyyat (komando) hərbi hissələrinə Döyüş bayraqlarının verilməsinə həsr olunmuş mərasimdə iştirak ediblər. Prezident İlham Əliyevə hərbi hissələrə Döyüş bayraqlarının təqdim edilməsi mərasiminə hazırlıq barədə məruzə olundu. "Bu illər ərzində, əlbəttə ki, ilk növbədə Naxçıvanın müdafiə potensialının gücləndirilməsi məsələsi prioritet məsələlər sırasında idi. Bu istiqamətdə də böyük işlər görüldü və bu gün bayrağın təqdimetmə mərasimində bir daha Naxçıvanın hərbi gücü özünü göstərdi, həm texnika ilə təchizat, - özü də ən müasir texnika ilə, – həm də yeni komando qüvvələrinin yaradılması. Bu da Azərbaycan Silahlı Qüvvələrində son vaxtlar müşahidə olunan mənzərədir", - deyə Prezident bildirib.

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikası yeni dövrünü yaşayır. Həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, Muxtar Respublikada Ulu Öndər Heydər Əliyevin siyasi xətti uğurla davam etdirilir.

***Zümrüd BAYRAMOVA***

# Prezident İlham Əliyev Almaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



***Azərbaycan Prezidenti İlham Əliyev avqustun 13-də Almaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dirk Lölkeni qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Dövlətimizin başçısı səfirlə söhbət etdi.***

Ötən ay Almaniyaya rəsmi səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı səfər zamanı Prezident Frank-Valter Ştaynmayer və Kansler Fridrix Merts ilə ikitərəfli əlaqələr və beynəlxalq məsələlər üzrə yaxşı müzakirələrin aparıldığını vurğuladı, ölkələrimizin regional sabitlik, təhlükəsizlik və inkişafla bağlı baxışlarının üst-üstə düşdüyünü qeyd etdi. Müzakirələr zamanı potensial əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirildiyini, bunların qarşılıqlı anlaşmaya və tərəfdaşlığımızın inkişafına gətirib çıxardığını deyən dövlətimizin başçısı Berlində imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"nin əhəmiyyətini vurğuladı, bunun münasibətlərimizi keyfiyyətcə üstün səviyyəyə qaldırdığını bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, bu gün biz artıq bir çox sahələrdə strateji qarşılıqlı əlaqələr haqqında danışırıq və ticarət, investisiyalar, biznes sahələrində mövcud olan imkanlar ikitərəfli əlaqələrimizi gücləndirir. Dövlətimizin başçısı səfirin Azərbaycanda fəaliyyətə onun Almaniyaya rəsmi səfərindən sonra başladığını vurğulayaraq, bunun ikitərəfli əlaqələrin gələcək inkişafı baxımından çox önəmli olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə minnətdarlığını bildirən Dirk Lölke ötən il avqustun 8-də Azərbaycanla Ermənistan arasında Vaşinqtonda keçirilmiş Zirvə Görüşünün birinci ildönümü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Dövlətimizin başçısı öz növbəsində regionda sülh gündəliyinin məhz Azərbaycanın təşəbbüsü ilə başladığını, sülh gündəliyinin irəli aparılması üçün ölkəmizin səylərini bundan sonra da davam etdirəcəyini və bölgədə sülhün artıq dönməz olduğunu bir daha vurğuladı. Səfir Almaniya hökumətinin Prezident İlham Əliyevin səfərinin nəticələrindən çox məmnun olduğunu qeyd etdi. O, müzakirə olunmuş işlərin tezliklə icra ediləcəyinə ümidvarlığını bildirdi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər və son dövrlərdə bu əlaqələrin inkişafında müşahidə olunan müsbət dinamika vurğulandı. Həmçinin Şərq-Qərb nəqliyyat dəhlizi və Almaniya şirkətlərinin gələcəkdə bu marşrutun imkanlarından istifadə etmələri, ənənəvi və bərpaolunan enerji, eləcə də təhsil sahələrində əməkdaşlıq imkanlarına toxunuldu.

# Prezident bölgənin gələcək siyasi-iqtisadi xəritəsini elan etdi!

***“Azərbaycan Prezidentinin Naxçıvanda Azərbaycan Dövlət Televiziyasına verdiyi müsahibə olduqca aktual mövzularla zəngindir. Xüsusilə qonşu İran və Ermənistanla iqtisadi və enerji əlaqələri barədə dövlət başçısının dedikləri bölgənin inkişafı üçün yeni səhifənin açıldığını, xüsusilə Azərbaycanın bu regional inteqrasiyadan və logisitika hərəkətliliyindən qazanacağı imkanlara aydınlıq gətirir. Cənab Prezdentin müsahibədə səsləndirdiyi fikirlər bölgəmizdə yeni inteqrasiya və iqtisadi aktivliyin sürətlənəcəyinə dair mühüm mesajdır”.***



***Mətləb Salahov: “İlham Əliyevin Zəngəzur dəhlizi, habelə İran və Ermənistanla əlaqələrə dair fikirləri bölgədə yeni inteqrasiya üçün mühüm mesajdır”***

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-araşdırmaçı Mətləb Salahov bildirib. O qeyd edib ki, dövlət başçısının ”Zəngəzur dəhlizinin yaradılması bildiyiniz kimi, bizim təşəbbüsümüz olub. Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirmək bizim çoxdankı arzumuz olub. Biz bu hədəfə doğru inamla və çox böyük məharətlə addımlayırdıq, yaxınlaşırdıq və artıq yaxınlaşmışıq” mesajı rəsmi Bakının qətiyyətli mövqeyinin növbəti nümayişi, habelə milli mənafelər üçün son dərəcə istəkli mövqeyinin növbəti dəfə nümayişidir.

SİTAT: “Bu, olduqca önəmli mesajdır. Azərbaycanın əsas hissəsinin dəmiryol vasitəsi ilə Naxçıvana birləşdirilməsi bütün zamanlar üçün ən aktual dövlət maraqlıdır. Üstəlik, Prezident İlham Əliyevin “vaxt itirmək lazım deyil” mesajı Zəngəzur istiqamətində Azərbaycanın yanaşmasının mühüm xüsusiyyətini göstərir. Azərbaycan bu layihənin reallaşmasını yalnız digər tərəflərin qərarlarından asılı olan proses kimi nəzərdən keçirmir. Naxçıvan dəmir yolunun reabilitasiyası üçün Azərbaycanın öz vəsaiti hesabına işləri həyata keçirməyə hazır olması dövlətin layihəyə verdiyi strateji əhəmiyyətinin göstəricisidir.

Bu yanaşma, eyni zamanda Azərbaycanın maliyyə və infrastruktur imkanlarının əhəmiyyətli dərəcədə artdığını nümayiş etdirir. Ölkə böyük infrastruktur layihələrini maliyyələşdirmək və həyata keçirmək imkanına malikdir. Bu isə strateji layihələrin reallaşmasında xarici maliyyə mənbələrindən asılılığı azaltmaqla yanaşı, qərarvermə prosesində Azərbaycanın mövqeyini də gücləndirir. Məncə, çox qısa zamanda, qarşıdakı payız aylarında bizi bölgənin inkişafı baxımından və həm İranla, həm də Ermənistanla inteqrasiya baxımından mühüm yeniliklər gözləyir”.

***Afət Tahirqızı***

# “TRIPP Azərbaycanın regional nəqliyyat siyasətində yeni səhifə aça bilər”




“Cənubi Qafqazda uzun illər ərzində mövcud olmuş nəqliyyat və kommunikasiya məhdudiyyətlərinin aradan qaldırılması regionun iqtisadi gələcəyi baxımından yeni mərhələnin başlanğıcıdır. ABŞ-nin dəstəklədiyi “Sülh və Rifah üçün Tramp Marşrutu” – TRIPP layihəsi yalnız Azərbaycan və Ermənistan arasında nəqliyyat bağlantısının yaradılması deyil, bütövlükdə regionun logistika xəritəsinin yenidən formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır”. Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Sevil Mikayilova deyib. Onun sözlərinə görə, TRIPP çərçivəsində Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında Ermənistan ərazisindən keçməklə nəqliyyat bağlantısının yaradılması nəzərdə tutulur: ”Layihənin əsas komponentləri arasında dəmir yolu, avtomobil yolları, enerji infrastrukturu və fiber-optik kommunikasiya xətlərinin çəkilməsidir.

TRIPP-in Azərbaycan üçün əhəmiyyəti ilk növbədə ölkənin nəqliyyat sisteminin daha geniş regional şəbəkəyə inteqrasiyasının sürətlənməsi ilə bağlıdır. Azərbaycanın əsas ərazisindən Naxçıvana birbaşa quru bağlantısının yaradılması ölkənin ərazi bütövlüyü çərçivəsində nəqliyyat əlaqələrinin gücləndirilməsi ilə yanaşı, Türkiyə istiqamətində daha qısa və alternativ marşrutun formalaşmasına imkan verəcək.

Azərbaycan son illərdə öz coğrafi mövqeyini konkret nəqliyyat infrastrukturu ilə tamamlayaraq Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində mühüm tranzit qovşaqlarından birinə çevrilmək siyasəti həyata keçirir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Azad İqtisadi Zonası və digər layihələr bu strategiyanın əsas elementlərindəndir. TRIPP-in reallaşması isə bu şəbəkəyə yeni bağlantı əlavə edə bilər. Layihənin Azərbaycan hissəsi Naxçıvan və daha sonra Türkiyə ilə bağlantının güclənməsinə, Türkiyə üzərindən isə Avropa bazarlarına çıxış imkanlarının genişlənməsinə şərait yaradacaq.

Məhz burada TRIPP-in Orta Dəhlizlə əlaqəsi xüsusi əhəmiyyət qazanır. Mərkəzi Asiyadan Xəzər dənizi vasitəsilə Azərbaycana daxil olan yüklərin ölkə ərazisindən Türkiyə və Avropaya daşınması üçün artıq formalaşmaqda olan infrastruktur mövcuddur. TRIPP bu sistemə əlavə bağlantı verərək marşrutların şaxələndirilməsinə imkan yarada bilər.




Nəticə etibarilə, TRIPP Azərbaycanın regional nəqliyyat siyasətində yeni səhifə aça bilər. Layihənin tam reallaşması ölkənin Naxçıvanla bağlantısını gücləndirməklə yanaşı, Türkiyə və Avropa istiqamətində yeni imkanlar formalaşdıracaq, Orta Dəhlərin şaxələndirilməsinə töhfə verəcək və Azərbaycanın Cənubi Qafqazda logistika qovşağı kimi rolunu daha da möhkəmləndirə bilər”.

***Lətifə Musayeva***

MÖVQE



**Mətanət Məmmədova**

# Dünənin qaranlıq Naxçıvanı sabahın enerji ixracatçısı olacaq

***Elektrik enerjisi və təbii qaz 1988-ci ildən Naxçıvanın ən böyük ehtiyacına çevrilmişdi. Ermənistan həmin tarixdən etibarən torpaqlarımıza növbəti iddiasını başlamaqla paralel, həm də ərazisindən keçərək Naxçıvana gələn qaz və elektrik xətlərini dağıdır, Naxçıvan günlərlə işıqsız və qazsız qalırdı. Artıq 1990-cı ilə qədər demək olar ki, qaz və işıq tamamilə kəsilmiş, insanlar qaranlıq və soyuqda qalmışdı.***

Naxçıvanda təbii qaz 15 ildən artıq olmadı. Elekrtik enerjisi isə Ulu Öndər Heydər Əliyevin şəxsi nüfuzu sayəsində qonşularımızdan alınıb növbəli şəkildə əhalinin istifadəsinə verilirdi. Yəni, muxtar respublikada işıq 2 saatdan bir olurdu. Belə olan halda isə hamı həmin 2 saatdan istifadə etdiyi üçün xətlər o qədər yüklənirdi ki, elektrik enerjisi verilən zaman xətlər buna tab gətirmir, qırılırdı. Nəticədə bəzən elə gün olurdu ki, müəyyən bir ərazidə əhali bir dəfə də 2 saatlıq “işıq vaxtı”ndan istifadə edə bilmirdi.

Bu gündən o dövrə nəzər saldıqda insan övladı necə minlərcə dəfə şükür etməz... Bu gün Naxçıvanın təbii qaza olan olan ehtiyacı 100 faiz ödənilib. Yadımdadır, 2004-cü ildə Naxçıvana təbii qaz çəkilşi həyata keçirilirdi. Mərhələli şəkildə şəhər, rayon mərkəzləri, ən ucqar kəndlərə belə təbii qaz xətləri bərpa olunurdu. Hələ üstəlik evlərə “Beko” markalı qaz plitəsi də hədiyyə olaraq qoyulurdu. Həmin hədiyyəni bu gün xatırlamaq həqiqətən insanı kövrəldir. O zaman insanların sevincini gözləri ilə görən biri kimi dövlətimizin blokada Naxçıvanın əhalisinə yaşatdığı sevincdən doğan minnətdarlıq hissinin nə qədər böyük olduğunu söyləmək üçün sözlər aciz qalır.

Dövlətimizin başçısı avqustun 11-də Naxçıvana növbəti səfəri zamanı Azərbvaycan televiziyasına verdiyi müsahibədə bu məsələyə toxundu və tarixi faktlarla Naxçıvanın təbii qaz məsələsinin həllini izah etdi: Bu məqsədlər üçün vaxtilə yenə də mənim təşəbbüsümlə biz İran İslam Respublikası ilə qaz mübadiləsi sazişini imzaladıq. Bu sazişə əsasən, İrandan Azərbaycana qaz kəməri çəkilmişdir və eyni zamanda, Azərbaycanın Astara rayonundan İran ərazisinə qaz nəqli təmin edilmişdir. Yəni biz Naxçıvanı mübadilə yolu ilə 100 faiz qazla təmin etdik.

Bununla paralel olaraq, qazlaşmanı apardıq. Artıq neçə ildir ki, - təqribən deyə bilərəm, bəlkə 15 il, bəlkə ondan da çox, - Naxçıvanda qazlaşma 100 faizdir. Azərbaycanda ümumilikdə qazlaşmanın səviyyəsi 96 faizdir, bu da çox böyük rəqəmdir. Ancaq Naxçıvanda bu, artıq 100 faizdir. Yəni bu da enerji təhlükəsizliyinə yönəlmiş bir addım idi.

Naxçıvanda elektrik enerjisinə olan tələbatın təbii resurslar hesabına ödənilməsi məqsədilə bir çox su və Günəş elektrik stansiyaları, modul tipli elektrik stansiyası inşa edilmişdir. Dövlət başçısının budəfəki səfəri zamanı 300 meqavat gücündə istilik elektrik stansiyasının təməlini qoyması və 50 meqavat gücündə iki Günəş elektrik stansiyasının tikintisi ilə tanış olması Naxçıvanın enerji mənbələrinin daha da artırılacağını şərtləndirən amildir. Müsahibə zamanı Prezidentimizin bu barədədə dəyərli fikirlərini dinlədik: Naxçıvanda Günəş enerjisinin potensialı çox böyükdür. Aparılan monitorinq və dəqiq təhlil əsasında Günəş elektrik enerjisinin istehsalı üçün Azərbaycan ərazisində ən əlverişli məkan Naxçıvandır. Buna görə artıq 600 hektardan çox ərazi müəyyən edildi və orada yüzlərlə meqavat gücündə Günəş elektrik stansiyaları inşa ediləcək.

Dediyim 200 meqavat generasiya gücü Naxçıvanın bugünkü tələbatından artıqdır. Amma biz gələcəyə baxmalıyıq. Naxçıvanın sürətli inkişafı davam etdiriləcək, o cümlədən Dövlət Proqramının icrası nəticəsində. Bu Proqram da mənim Sərəncamımla qəbul edilmişdir. Naxçıvandan çox böyük həcmdə elektrik enerjisinin ixracı da nəzərdə tutulacaq.

Dövlətimizin başçısının Naxçıvanda elektrik enerjisi ixracı ilə bağlı söylədiyi fikirlər qürur yaradır. İllər öncə qaranlıq ilə mübarizə aparan, elektrik enerjisinin yoxluğu üzündən istehsal müəssisələrinin fəaliyyəti dayanan, əhalisi min bir çətinliklə yaşayan, bayram süfrələri ətrafında da çırıq işığında əyləşən, qaranlıqda günləri aylara çevirən Naxçıvan gələcəyin elektrik enerjisi ixracatçısı olacaq. Bu, sevindirici və qürurvericidir. Həm də ölkəmizin zəngin təbiətə məxsus bölgəsinin təbii resurslarının da zənginliyinin, tükənməzliyinin göstəricisidir. Deməli, bu resurslardan istifadə edib daha gözəl sabahların sahibinə çevrilmək mümkün imiş.



# Naxçıvan Regional DOST Mərkəzi: əhaliyə sosial xidmət modeli

*Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində mühüm işlər görülüb. Bu məqsədlə müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib.*



Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Mərkəzlərində əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza sahələri üzrə 100-dən artıq xidmət göstərilir. 4 Saylı "DOST" Mərkəzinin tərkibindəki "Çağrı Mərkəzi" ölkə üzrə gündəlik 5 minədək zəng qəbuluna şərait yaradır. Azərbaycanda sosial xidmətlərin mərkəzləşdirilmiş, şəffaf və vətəndaşa dost yanaşma əsasında göstərilməsi dövlət siyasətinin əsas prioritetlərindəndir. Son illərdə ölkədə sosial təminat və xidmət sahəsində əsaslı islahatlar aparılır, dövlət vətəndaş rifahının təmin olunması üçün bir sıra yeniliklər tətbiq edir. Bu yeniliklər arasında xüsusi yer tutan DOST (Dayanıqlı və Operativ Sosial Təminat) mərkəzləri yeni sosial idarəetmə modelinin bariz nümunəsidir. Bakı şəhərində açılmış DOST mərkəzləri isə ölkədə bu konsepsiyanın ən geniş və uğurlu tətbiq olunduğu məkanlardandır. 3 saylı Bakı DOST Mərkəzi də paytaxt əhalisinin sosial xidmətlərə əlçatanlığını, şəffaflıq və operativliyi təmin edən əsas qurumlardan biridir. DOST Mərkəzləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb, "bir pəncərə" prinsipinə əsaslanaraq sosial xidmətlərin ən müasir formada təqdim edilməsini, vətəndaşların məmnunluğunun artırılmasını, şəffaflığın və innovativ yanaşmanın təmin edilməsini əsas məqsəd kimi qarşıya qoyur. 3 saylı Bakı DOST Mərkəzi isə xüsusilə öz geniş xidmət portfeli, texnoloji imkanları, peşəkar heyəti və vətəndaş yönümlü fəaliyyəti ilə seçilir.

Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan DOST Agentliyinin Naxçıvan Regional DOST Mərkəzinin açılışında iştirak ediblər. Bu mərkəzdə əhaliyə 164 sosial xidmət göstəriləcək. Ümumilikdə 117 işçinin və 50 könüllünün fəaliyyət göstərəcəyi mərkəzdə gün ərzində orta hesabla 500-600 vətəndaşın qəbulu nəzərdə tutulur. Bütün xidmətlər "Bir pəncərə" prinsipi əsasında təşkil olunub və Naxçıvan sakinlərinə rahat, operativ və əlçatan şəkildə təqdim ediləcək. Bu yanaşma müxtəlif sosial istiqamətlər – pensiya, əmək və məşğulluq, sosial müavinətlər, əlillik, övladlığagötürmə və digər sosial xidmətlərin vahid məkanda, şəffaf formada göstərilməsinə imkan yaradır. Əlilliyi olan şəxslərin mərkəzdə tibbi-sosial ekspertizası, onların fərdi ehtiyaclarına uyğun reabilitasiya vasitələri ilə təminatı, eyni zamanda, reabilitasiya xidmətlərindən yararlanmaları üçün ixtisaslaşmış reabilitasiya müəssisələrinə göndərişlərin rəsmiləşdirilməsi də icra ediləcək. Dövlətimizin başçısı və birinci xanım qabaqcıl beynəlxalq istehsalçı şirkətlərin məhsulları olan protezlərə də baxıblar.

Bu protezlər istifadəçilərə təbii fizioloji, sərbəst və təhlükəsiz hərəkət, müxtəlif səth və sürətlərə uyğunlaşma, həmçinin sosial həyata və əmək fəaliyyətinə daha sürətli inteqrasiya imkanı yaradır.

İndiyədək 500-dən çox hərbçiyə 620 yüksək texnologiyalı protez təqdim olunub. Həmçinin yüksək texnologiyalı reabilitasiya və tibbi-sosial xidmətlər sayəsində müharibə ilə əlaqədar əlilliyi olan 300-dək şəxs əvvəlki sağlamlığına qovuşub. Ölkəmizdə müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı protezlərlə təminatı üzrə işlər nəcib fəaliyyəti ilə seçilən Heydər Əliyev Fondunun təşəbbüsü ilə başladılıb. Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təminatının gücləndirilməsi üçün dövlətimiz tərəfindən həyata keçirilən sosial müdafiə siyasəti nəticəsində reabilitasiya vasitələrinin çeşidinin sayı 57-dən 130-a çatdırılıb. Əlilliyi olan şəxslər bu ilin əvvəlindən bəri 300 minədək müxtəlif növ reabilitasiya vasitələri ilə təmin edilib.

### DOST İNKLÜZİV İNKİŞAF VƏ YARADICILIQ MƏRKƏZİ

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Naxçıvan Regional İnformasiya Mərkəzinin bazasında yaradılması nəzərdə tutulan Naxçıvan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin layihəsi də təqdim edildi. Əlilliyi olan şəxslərə hazırda 13 istiqamət üzrə göstərilən sosial bacarıqların inkişafı xidmətlərinin yeni mərkəzdə daha da genişləndirilərək 20-yə çatdırılması nəzərdə tutulur. Son illərdə ölkəmizdə həyata keçirilən sosial islahatlar dünya səviyyəsində yüksək qiymətləndirilib və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən 300-dən artıq mükafat və sertifikatla təltif olunub. Onların arasında "Hamı üçün inklüziv və bərabər sosial təminat xidmətləri" təşəbbüsünə görə BMT-nin Dövlət Xidmətləri Mükafatı da var. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış DOST mərkəzləri sosial xidmətlərin göstərilməsində keyfiyyətcə yeni mərhələnin formalaşmasına səbəb olub. Bu mərkəzlərdə indiyədək vətəndaşlara 164 növ xidmət, ümumilikdə isə 4,6 milyon sosial xidmət göstərilib, xidmətlərdən məmnunluq səviyyəsi isə təxminən 99 faiz olub. Hazırda DOST şəbəkəsinin ölkə üzrə genişləndirilməsi istiqamətində işlər davam etdirilir. 2026-2027-ci illərdə Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində DOST qəbul şöbələrinin yaradılması, 2030-cu ilədək isə ölkə üzrə 18 DOST mərkəzinin, o cümlədən 60 şöbə və məntəqədən ibarət geniş xidmət şəbəkəsinin formalaşdırılması nəzərdə tutulur. Əlbəttə ki, dövlətimiz tərəfindən bütün görülən işlərin arxasında insanlara daha da keyfiyyətli xidmətin göstərilməsi dayanır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Sülh insanlığın rəmzidir

*Dünya yaranandan insanlar bir-birinə qarşı savaş aparıblar. Dövlətlər yarandıqca və yeni torpaqlar, müxtəlif zəngin ərazilər aşkarlandıqca dövlətlər bir-birini sıradan çıxartmağa cəhdlər göstəriblər. Bu səbəbdən də, bəşəriyyət heç zaman sakitlik görməyib. Müharibələr olub və bu gün də davam etməkdədir. Müharibə dedikdə təbii olaraq göz önünə günahsız insanların, uşaqların, qocaların, qadınların öldürülməsi, yaralanması düşür.*

Müharibə ümumilikdə fəlakət deməkdir, kədər və göz yaşı deməkdir. Müharibə zonalarında heç bir insan sağ qala biləcəyinə ümid edə bilməz, yaşayış məskənlərinin



qorunması, mühafizə edilməsi də mümkünsüzdür. Müasir dövrdə, xüsusilə də 2023-cü ildə dünyada 75 münaqişəli bölgə qeydə alınıb. 2024-cü ildə isə bu rəqəm 85-ə, 2005-ci ildə isə 104-ə yüksəlib, hazırda isə dünyada müharibə və münaqişələrin sayı 118-dir. İsveçin Uppsala Universitetinin Münaqişələrin Tədqiqi Proqramına əsasən, bu, statistik məlumatların sistematik toplanmasının başladığı 1946-cı ildən bəri maksimum göstəricidir. Bu artım onu deməyə əsas verir ki, insanlıq bir-birinə qarşı düşmənçiliyi genişləndirir.

İddialara görə, bu günə qədər dünyada 125 minə yaxın irili-xırdalı, münaqişələr, müharibələr baş verib. Bu müharibələr zamanı 1, 5 milyard insan öldürülüb. Əksər hallarda müharibə həmişə başladığı sərhədlərdən kənara çıxır. Dövlətlər onu başlayır, diplomatlar onu bitirir. Birinci Dünya müharibəsi 1914-cü il iyulun 28-də Avstriya-Macarıstan imperiyasının Serbiyaya müharibə elan etməsi ilə başlandı. Bu müharibə Avropa, Yaxın Şərq, Afrika, Şərqi Asiya və dünya okeanlarını əhatə edən müharibəyə çevrildi. Nəticə fəlakətli oldu. 20 milyon insanın həyatına son qoyuldu, 50 milyon insan yaralandı, bütöv kəndlər və şəhərlər yer üzündə silindi, dünya xəritəsi yenidən cızıldı.

### Fəlakəti yaradan və inkişaf etdirən aparıcı dövlətlərdir

Sonrakı dövrdə Almaniya faşizminin başladığı müharibə bəşəriyyət üçün növbəti fəlakət yaratdı. İkinci Dünya müharibəsi dünya siyasətinin dönüş nöqtəsi olmuşdur. Beynəlxalq arenada qüvvələrin yeni paylaşması meydana çıxmışdır. İkinci Dünya müharibəsi müharibələr tarixində ən dəhşətlisi idi. Onun müxtəlif mərhələlərində hər iki döyüşən tərəfdən 12,8 milyona kimi insan iştirak etmiş, 163 min top, 18,3 min təyyarədən istifadə olunmuşdur. Hərbi əməliyyatların əhatə etdiyi ərazi Birinci Dünya müharibəsindəkindən 5,5 dəfə çox olmuşdur. Müharibəyə sərf edilən xərclərin miqdarı 4 trilyon ABŞ dollarını ötmüşdür. Bunun 1 trilyon 117 milyardını sırf hərbi xərclər təşkil etmişdi. Müharibə zamanı 60 milyondan çox adam tələf olmuşdu. Ondan 27 milyonu SSRİ-nin, 13,6 milyonu Almaniyanın, 6 milyonu Polşanın, 5 milyonu Çinin, 2,5 milyonu Yaponiyanın, 1,7 milyonu Yuqoslaviyanın, 600 mini Fransanın, 370 mini İngiltərənin, 300 mini ABŞ-ın və s. payına düşmüşdü. İkinci Dünya müharibəsi 1945-ci ildə anti-Hitler koalisiyasının qələbəsi ilə başa çatdıqdan sonra dünyanın siyasi xəritəsi dəyişikliyə məruz qalmışdı. Beynəlxalq əməkdaşlıq qurmaq və növbəti toqquşmalara imkan verməmək üçün BMT yaradılmışdı. Təəssüflər olsun ki, BMT dünyada sülhün və təhlükəsizliyin yaradılması missiyasınız üzərinə götürsə də, bu vacib amili yerinə yetirə bilməyir. Çünki aparıcı dövlətlər dünya arenasında öz maraqlarını təmin etmək üçün müxtəlif bəhanələrlə müstəqil dövlətlərin ərazilərinə soxulurlar. Hərbi gücü ilə öldürür, yaralayır, şəhər və kəndləri xarabazarlıqlara çevirirlər. Əksər hallarda daha çox mülki əhali zərər görürür. Fikir verin, artıq 5 ildir davam edən Rusiya –Ukrayna müharibəsində daha çox dinc sakinlər əziyyət çəkiblər. Hər iki tərəfdən ümumilikdə 3 milyondan çox hərbçi həyatını itirib, 18 milyona yaxın ukraynalı ölkəni tərk edib. Rusiya hücum edən tərəf olsa da, ciddi itkilərə məruz qalıb. Rəsmi Moskva beynəlxalq ictimaiyyətin dəstəyindən məhrum olub. Sanksiyalar səbəbindən Rusiya iqtisadiyyatı tamamilə çöküb.

### Millətlər sülh istəyir, cəlladlar isə müharibə deyir

Avqustun 10-da Nijnekamsk şəhərinə edilən pilotsuz təyyarələrinin hücumu ilə Tatarıstan mətamə büründü. Şəhərdəki həm sənaye, həm də mülki obyektlərə zərbələr endirilib. Tatarıstan rəhbəri Rüstəm Minnixanov 10 avqustu respublikada matəm günü elan edib. 11 avqust tarixinə olan məlumata görə, Nijnekamsk şəhərinə edilən dron hücumunda beş yaşlı qız da daxil olmaqla 13 nəfər həlak olub. Son məlumatlara görə, 78 nəfər tibbi yardıma müraciət edib, onlardan 25-i xəstəxanaya yerləşdirilib. Nijnekamsk meri Radmir Belyayev bildirib ki, şəhər həm sənaye, həm də mülki obyektlər böyük düşmən dron hücumuna məruz qalıb və zərər görüb. Təbii ki, Ukrayna özünü müdafiə edir və Rusiya ərazisinə hücumlar edir. Hərbi baxımdan bu, təəccüblü deyil: hücum altında olan bir dövlət düşmənin hərbi potensialını yerləşdiyi yerdə məhv etməyə çalışır.

Ölənlər və yaralananlar arasında ruslarla yanaşı Özbəkistan vətəndaşları olub. Onlar Rusiyaya işləmək üçün gediblər. Onların Rusiya-Ukrayna qarşıdurması ilə heç bir əlaqəsi yoxdur. Lakin onlar onun qurbanı olublar. Bu isə onu deməyə əsas verir ki, insanlıq təhlükə qarşısındadır. Hələ çox qanlar töküləcək, şəhərlər, kənd və qəsəbələr dağıdılacaq.

*İ.ƏLİYEV*

# Abort: tibbi zərurət, qadın seçimi, yoxsa hüquqi məsuliyyət?

***Abort hamiləliyin tibbi müdaxilə vasitəsilə süni şəkildə sonlandırılmasıdır. Bu prosedur həm arzuolunmaz hamiləliyin dayandırılması, həm də ana və ya dölün sağlamlığı ilə bağlı tibbi göstərişlər olduqda həyata keçirilə bilər. Abortun hüquqi statusu, həyata keçirilmə müddəti və icazə verilən hallar ölkələrin qanunvericiliyindən asılı olaraq dəyişir.***



Abort məsələsi uzun illərdir həm tibbi, həm hüquqi, həm də etik baxımdan müzakirə olunur. Müxtəlif ölkələrdə hamiləliyin hansı müddətinə qədər aborta icazə verilməsi və hansı hallarda prosedurun qanuni hesab edilməsi ilə bağlı fərqli yanaşmalar mövcuddur. Bu səbəbdən abort hüququ ilə bağlı beynəlxalq təcrübə vahid deyil. SİA mövzu ilə bağlı araşdırma edib.

### Abortun tarixi və hüquqi tənzimlənməsi

Abort qədim dövrlərdən müxtəlif üsullarla tətbiq edilsə də, müasir dövrdə onun həyata keçirilməsi əsasən tibbi standartlar və qanunvericiliklə tənzimlənir. Ölkələr arasında əsas fərqlər abortun tələb əsasında həyata keçirilib-keçirilməməsi, hamiləliyin hansı həftəsinə qədər icazə verilməsi və tibbi göstərişlərin necə müəyyənləşdirilməsi



ilə bağlıdır.

Bəzi ölkələrdə abort müəyyən hamiləlik müddətinə qədər qadının istəyinə əsasən qanuni hesab olunur. Digər ölkələrdə isə yalnız ananın həyatının və ya sağlamlığının qorunması, zorlama nəticəsində yaranmış hamiləlik və ya dölün ciddi patologiyalarının müəyyən edilməsi kimi hallarda aborta icazə verilir. Abortun hüquqi statusu dəyişən sahələrdən biri olduğuna görə müxtəlif ölkələr üzrə statistik göstəricilər və qanunvericilik məlumatları təqdim edilərkən onların aktual mənbələr əsasında yenilənməsi xüsusi əhəmiyyət daşıyır.

### Abort hansı hallarda həyata keçirilir?

Abort iki əsas vəziyyətdə nəzərdən keçirilə bilər: qadının istəyinə əsasən hamiləliyin sonlandırılması və tibbi göstərişlər əsasında hamiləliyin dayandırılması. Tibbi göstərişlərə hamiləliyin davam etdirilməsinin qadının həyatı və ya sağlamlığı üçün ciddi təhlükə yaratması, dölün həyatla uzlaşmayan və ya ağır inkişaf qüsurlarının müəyyən edilməsi, eləcə də inkişafdan qalmış hamiləlik kimi hallar daxil ola bilər.

İnkişafdan qalmış hamiləlik zamanı embrion və ya dölün inkişafı dayanır və hamiləlik öz-özünə sonlanmadıqda tibbi müdaxiləyə ehtiyac yarana bilər. Belə hallarda müvafiq müayinə və ultrasəs müayinəsi əsasında diaqnoz dəqiqləşdirilir.

Bəzi hallarda hamiləlik dövründə müəyyən dərman preparatlarına məruz qalma və ya yüksək dozalı radiasiyanın təsiri də tibbi qiymətləndirmə tələb edə bilər. Lakin belə vəziyyətlərdə hamiləliyin avtomatik olaraq sonlandırılması nəzərdə tutulmur; bu, xüsusi hallarda, döl üçün potensial risklərin mama-ginekoloq və digər mütəxəssislər tərəfindən qiymətləndirilməsi əsas götürülür.

### Abort necə həyata keçirilir?

Müasir tibbdə hamiləliyin müddətindən və klinik vəziyyətdən asılı olaraq müxtəlif üsullardan istifadə edilir. Erkən hamiləlikdə medikamentoz abort və ya vakuum aspirasiya kimi üsullar tətbiq oluna bilər. Əvvəllər geniş istifadə edilən kəskin küretaj üsulunda uşaqlıq boşluğundakı toxumaların mexaniki alətlərlə çıxarılması həyata keçirilirdi. Müasir tibbdə isə uyğun hallarda vakuum aspirasiya kimi daha az travmatik üsullara üstünlük verilir. Vakuum aspirasiya zamanı xüsusi steril kanül vasitəsilə uşaqlıq boşluğundakı hamiləlik toxuması vakuum vasitəsilə xaric edilir. Prosedurun müddəti hamiləliyin müddətindən, seçilən üsuldan və pasiyentin fərdi vəziyyətindən asılıdır.

### Abortdan əvvəl nələrə diqqət edilməlidir?

Abort tibbi prosedur olduğundan onun yalnız müvafiq ixtisası olan həkim tərəfindən, tibbi standartlara uyğun və steril şəraitdə həyata keçirilməsi vacibdir. Prosedurdan əvvəl hamiləliyin müddəti müəyyənləşdirilməli, pasiyentin ümumi sağlamlıq vəziyyəti qiymətləndirilməli və zəruri hallarda ultrasəs müayinəsi aparılmalıdır. Qan qrupu, qəbul edilən dərmanlar, xüsusilə qan durulaşdırıcı preparatlar və anesteziya ilə bağlı risklər də həkim tərəfindən nəzərə alınmalıdır.

Sedasiya və ya anesteziya tətbiq olunacağı halda qida və maye qəbulunun dayandırılması ilə bağlı müddət tibbi müəssisənin və anestezioloqun göstərişlərinə uyğun müəyyən edilir.

### Abortdan sonra hansı qaydalara əməl edilməlidir?

Abortdan sonra müəyyən müddət ərzində yüngül qanaxma, qarınaltı ağrı və menstrual sancıya bənzər narahatlıq müşahidə oluna bilər. Bu əlamətlərin intensivliyi və davametmə müddəti tətbiq edilən üsuldan və orqanizmin fərdi xüsusiyyətlərindən asılıdır. Həkim tərəfindən təyin edilmiş dərman preparatları göstərişə uyğun qəbul edilməlidir. Antibiotiklər isə yalnız tibbi göstəriş olduqda istifadə olunmalıdır.

Abortdan sonra güclü və ya artan qanaxma, yüksək hərarət, şiddətli qarın ağrısı, pis qoxulu vaginal ifrazat, ciddi halsızlıq və ya huşun itirilməsi kimi əlamətlər yarandıqda təcili tibbi yardım üçün müraciət edilməlidir.Menstrual siklin bərpası da fərdi xüsusiyyətlərdən asılıdır və ilk menstruasiyanın vaxtında dəyişikliklər müşahidə oluna bilər. Hamiləliyin yenidən baş verməsi isə abortdan sonra nisbətən qısa müddətdə mümkün olduğundan, hamiləlikdən qorunma üsulları barədə həkimlə məsləhətləşmək tövsiyə olunur.

### Abortun mümkün riskləri

Tibbi standartlara uyğun və ixtisaslı mütəxəssis tərəfindən həyata keçirilən abort ümumilikdə təhlükəsiz prosedur hesab olunur. Bununla belə, digər tibbi müdaxilələrdə olduğu kimi, abortun da müəyyən riskləri mövcuddur.

Əsas mümkün ağırlaşmalara aşağıdakılar daxildir:
* uşaqlıq boşluğunda infeksiya;
* güclü qanaxma;
* uşaqlıq boynunun zədələnməsi;
* uşaqlıq divarının perforasiyası;
* uşaqlıq boşluğunda hamiləlik toxumasının qalması;
* anesteziya və ya sedasiya ilə bağlı ağırlaşmalar;
* nadir hallarda uşaqlıq boşluğunda bitişmələrin yaranması.

Fəsadların yaranma riski hamiləliyin müddəti, tətbiq edilən üsul, pasiyentin sağlamlıq vəziyyəti və prosedurun həyata keçirildiyi tibbi şəraitdən asılıdır.

Müasir tibbi yanaşmada steril şəraitin təmin edilməsi, düzgün prosedur texnikasının seçilməsi, pasiyentin əvvəlcədən qiymətləndirilməsi və sonrakı tibbi nəzarət ağırlaşmaların riskini əhəmiyyətli dərəcədə azaldır.

### Azərbaycanda abortun hüquqi çərçivəsi

Azərbaycanda hamiləliyin süni şəkildə dayandırılması qanunvericiliklə müəyyən edilmiş müddət və şərtlər çərçivəsində həyata keçirilir. Qadının öz istəyi ilə hamiləliyin sonlandırılması üçün qanunvericilikdə müəyyən müddət nəzərdə tutulur. Bu müddətdən sonra hamiləliyin dayandırılması yalnız qanunvericilikdə müəyyən edilmiş tibbi və digər əsaslar olduqda mümkün ola bilər. Bu baxımdan abortla bağlı hüquqi məlumatlar hazırlanarkən qüvvədə olan qanunvericiliyə istinad edilməsi vacibdir.

### Dünyada abort hüququ

Dünyada abortun hüquqi statusu əhəmiyyətli dərəcədə fərqlənir. Bəzi ölkələrdə abort müəyyən hamiləlik həftəsinə qədər qadının istəyinə əsasən həyata keçirilir. Digər ölkələrdə isə prosedur yalnız məhdud tibbi və sosial-hüquqi hallarda mümkündür. Ümumdünya Səhiyyə Təşkilatı təhlükəsiz abort xidmətlərinə çıxışın məhdudlaşdırılmasının təhlükəli abort riskini artıra biləcəyini bildirir. Təhlükəsiz olmayan abortlar xüsusilə tibbi xidmətlərə çıxışın məhdud olduğu ölkələrdə qadın sağlamlığı üçün ciddi risk yaradır.

### Abortun ən çox məhdudlaşdırıldığı ölkələr

Bəzi ölkələrdə abort demək olar ki, bütün hallarda qadağandır və yalnız çox məhdud istisnalara icazə verilir. Bu ölkələr sırasında müxtəlif dövrlərdə El Salvador, Nikaraqua, Malta və digər dövlətlər göstərilib.

Məsələn, El Salvadorda abortla bağlı qanunvericilik uzun müddət dünyanın ən sərt hüquqi rejimlərindən biri kimi qiymətləndirilib. Maltada da abortla bağlı məhdudiyyətlər uzun illər ciddi olub. Polşada isə abortla bağlı qanunvericilik Avropanın ən məhdudlaşdırıcı sistemlərindən biri hesab edilir və hamiləliyin dayandırılmasına yalnız qanunvericilikdə nəzərdə tutulan müəyyən hallarda icazə verilir.

### Abort hüququnu genişləndirən ölkələr

Son illərdə bir sıra ölkələrdə abortla bağlı hüquqi yanaşmalar dəyişib. Kolumbiya, Meksika, İrlandiya və Argentina kimi ölkələrdə abort hüququnun genişləndirilməsi istiqamətində mühüm hüquqi dəyişikliklər həyata keçirilib. Kolumbiyada Ali Konstitusiya Məhkəməsinin qərarı ilə



müəyyən müddətə qədər abortun cinayət məsuliyyətindən çıxarılması təmin edilib. Meksikada da ölkənin ali məhkəmə instansiyalarının qərarları abortun kriminallaşdırılması ilə bağlı hüquqi yanaşmanın dəyişməsinə təsir göstərib.

### Tələb əsasında abort

Bir sıra ölkələrdə abort müəyyən hamiləlik müddətinə qədər qadının istəyinə əsasən qanuni hesab olunur. Ən geniş yayılmış müddətlərdən biri 12 həftə olsa da, bu müddət ölkələr üzrə dəyişir. Fransa, İspaniya və İtaliya kimi Avropa ölkələrində də abortla bağlı fərqli müddət və şərtlər tətbiq olunur. ABŞ-da isə abortun hüquqi statusu ştatlar üzrə əhəmiyyətli dərəcədə fərqlənir.

Türkiyədə hamiləliyin müəyyən müddətinə qədər qadının istəyinə əsasən aborta hüquqi imkan verilir. Müddət keçdikdən sonra isə hamiləliyin dayandırılması yalnız qanunvericilikdə nəzərdə tutulan xüsusi hallarda mümkündür.

*Ayşən Vəli*

ARAŞDIRMA

YENİ ARAŞDIRMA

# Demensiyanı ləngitmək mümkündür



*Alimlər orta yaşda demensiyanı on ildən çox müddətə ləngidə biləcək üç vacib sağlamlıq amili müəyyən etdiklərini iddia edirlər. Bir araşdırma göstərir ki, normal qan təzyiqinə sahib olmaq, 2-ci tip diabetin olmaması və 45-65 yaşları arasında siqaret çəkməmək, orta hesabla, təxminən 13 il əlavə demensiyasız həyat deməkdir.*

Tədqiqat həmçinin insanların nə qədər risk faktoru olursa olsun, qadınların demensiyasız kişilərə nisbətən daha çox yaşadığını və ağdərili insanların qaradərili insanlara nisbətən daha çox demensiyasız yaşadığını irəli sürüb. Araşdırma tibb jurnalı Neurology-də dərc olunub.

NYU Langone Health-dən olan tədqiqatçılar 1986-cı ildə başlayan və amerikalıları onilliklər boyu həyatın sonuna qədər orta yaş damar risk faktorlarını və demensiyanı ölçən Atherosclerosis Risk in Communities (Aric) tədqiqatının məlumatlarını təhlil ediblər.

Yeni təhlildə tədqiqatçılar orta yaşı 56 olan və demensiyadan azad olan 12.409 insanı araşdırıblar. İştirakçılar üç risk faktoruna görə qiymətləndirilib: yüksək qan təzyiqi, 2-ci tip diabet və siqaret çəkmə. Daha sonra onlar təxminən otuz il ərzində, orta hesabla 26 il müşahidə altında saxlanılıblar.

Bu müddət ərzində 3008 nəfərdə demensiya inkişaf edib və 5238 nəfərdə bu xəstəlik inkişaf etmədən ölüb. Üç risk faktorundan heç biri olmayanlar, hər üçü olanlara nisbətən təxminən 13 il daha çox demensiya inkişaf etmədən yaşayıblar. Tədqiqat göstərib ki, diabet, yüksək təzyiq olmayan və tədqiqatın əvvəlində siqaret çəkməyənlərin demensiyadan orta hesabla 30,1 il daha azad yaşayıblar.

Yeri gəlmişkən, bir risk faktoru olanların əlavə 26,3 ili, iki risk faktoru olanların 21 ili, üç risk faktoru olanların isə 17 ildən bir qədər çox yaşayıblar. "Nəticələrimiz göstərir ki, insanlar on ildən çox müddət ərzində beyin sağlamlığını qorumaq üçün strategiya olaraq bu amillərdən orta yaşda fəal şəkildə çəkinməlidirlər", - deyə NYU Langone-da Optimal Yaşlanma İnstitutunun direktoru, baş tədqiqatçı Dr. Josef Coresh bildirib.

Tədqiqatçılar müəyyən ediblər ki, məhdud yemək saatları yaşlılıqda koqnitiv geriləməni azalda bilər. Dünya miqyasında demensiya ilə yaşayan insanların sayının 2050-ci ilə qədər təxminən üç dəfə artaraq 153 milyona çatacağı proqnozlaşdırılır. Lakin mütəxəssislər hesab edirlər ki, dünya miqyasında demensiya hallarının demək olar ki, yarısının qarşısı alına və ya gecikdirilə bilər.

Əvvəlki tədqiqatlar uşaqlıqdan başlayaraq ömür boyu davam edən 14 dəyişdirilə bilən risk faktorunun aradan qaldırılmasının, insanların daha uzun yaşamasına baxmayaraq, demensiya hallarının 45%-nin qarşısını ala və ya gecikdirə biləcəyini irəli sürmüşdü.

NYU Langone tədqiqatında müəyyən edilmiş üç amilin çox vaxt orta yaşlarda yarandığı və neyrodegenerativ patologiyaya davamlı təsir göstərdiyi bildirilir ki, bu da erkən diaqnoz və müalicənin vacibliyini vurğulayır.

Alzheimer's Research UK-nin tədqiqat maliyyələşdirməsinin rəhbəri Dr. Jacqui Hanley deyir: "Bu tədqiqat yalnız demensiya inkişaf ehtimalına diqqət yetirmək əvəzinə, insanlar üçün vacib olan bir sualı ortaya qoyur: demensiyadan nə qədər xilas ola bilərik? Bu yanaşma, orta yaş sağlamlığının demensiyadan uzaq keçirdiyimiz illərin sayına necə təsir edə biləcəyi barədə mənzərə yaradır, eyni zamanda yüksək qan təzyiqi, diabet və siqaret çəkməyin demensiya ehtimalının daha yüksək olması, eləcə də digər xəstəliklərdən daha tez ölmə riskinin daha yüksək olması ilə əlaqəli olduğunu qəbul edir. Həmçinin araşdırma ürək və beyin sağlamlığınıza qayğı göstərməyin nə üçün bu qədər vacib olduğunu vurğulayır."

Hanley hər kəsin fiziki cəhətdən aktiv qalması, siqaret çəkməməsi və yüksək qan təzyiqi və diabet kimi xəstəliklərin idarə olunması da daxil olmaqla praktik addımlar atmalı olduğunu deyir: "Demensiyanın qarşısını almağın zəmanətli bir yolu olmasa da, bu tədqiqat da daxil olmaqla tədqiqatlar göstərir ki, zəif ürək-damar sağlamlığı üçün risk faktorlarının aradan qaldırılması idrak geriləməsi və demensiya riskini azaltmağa da kömək edə bilər."

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması " istiqaməti çərçivəsində hazırlanıb.***

ANALİZ

# İrəvanın yeni siyasi kursu kimə qarşıdır?

***Ermənistan Azərbaycanla sülh müqaviləsinin ildönümünü qeyd edir. Paşinyan Qərbin dəstəyini təmin etmək ümidi ilə Bakı və Ankara ilə münasibətləri yaxşılaşdırmağa çalışır. O, ölkəni təcriddən çıxarmaq və Şərqlə Qərb arasında körpü etmək istəyir. Bu barədə Livanın An Nahar nəşri xəbər verir.***




Ermənistanın baş naziri bir il əvvəl İrəvan və Bakı arasında əldə edilən sülh müqaviləsinin artıq "görünən və hiss olunan" hala gəldiyini bildirib və bunu ölkə üçün tarixi bir dönüş nöqtəsi adlandırıb. Nikol Paşinyan çıxışında qonşu Azərbaycanla münaqişədə məğlubiyyətindən və Rusiyanın İrəvana lazımi dəstəyi vermədiyinə görə tənqidindən sonra ölkənin yeni xarici siyasət kursunu açıqlayıb. 2018-ci ildə Serj Sarkisyan hökumətinin istefasına səbəb olan etirazlara rəhbərlik edən şəxs indi Ermənistana hərbi məğlubiyyət gətirən Türkiyə-Azərbaycan ittifaqına qarşı əvvəlki düşmənçilik ritorikasından istifadə etmədən danışır. Bunun əvəzinə, o, Qərb ölkələrinin dəstəyini təmin etmək və onların maraqlarını nəzərə almaq ümidi ilə onlarla münasibətləri yaxşılaşdırmağa çalışır. Bu, Rusiyanı qəzəbləndirir və hərbi məğlubiyyətindən sonra Nikol Paşinyan ölkəsini dəyişikliklərə aparacaq bir növ milli qəhrəman olmağa çalışdığı təəssüratı yaradır.

### Sülh müqaviləsi yeni bir başlanğıcdır

Paşinyan qonşuları ilə, xüsusən də Ermənistanı Avropa ilə birləşdirən ölkələrlə münasibətlərini inkişaf etdirməyə başlayıb. Onun məqsədi təcridə son qoymaqdır. 8 avqust 2025-ci ildə ABŞ-ın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında əldə edilən sülh müqaviləsinin ildönümündə baş nazir iki ölkə arasında sülhün artıq "görünən və hiss olunan" olduğunu bəyan edib. O, müqaviləni Ermənistan üçün tarixi bir dönüş nöqtəsi adlandırıb. "7 iyunda keçirilən parlament seçkilərində erməni seçiciləri bir daha sülhə dəstəklərini nümayiş etdirdilər", - deyə Paşinyan sülh prosesinin hələ də davam etdiyini vurğulayıb.

O, 8 avqustu Ermənistan tarixində "dönüş nöqtəsi" adlandırıb. Onun sözlərinə görə, razılaşmadan əvvəl ölkə "durğunluq" vəziyyətində idi, amma indi onun qarşısında "məhdudiyyətsiz perspektivlər" açılır. Yeni müharibə istisna olunur.

Ermənistanın baş naziri sanki ölkə artıq əvvəlki siyasətinə qayıtmaq istəmirmiş kimi danışmağa başlayıb. İndi o, Azərbaycan və Türkiyənin təcrübəsindən öyrənməyə və münaqişələrə qarışmadan dünyanın aparıcı gücləri arasında öz yerini tapmağa çalışır.

Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən AİB Hökumətlərarası Şurasının genişləndirilmiş iclasında Paşinyan bildirib ki, İrəvan Avrasiya İqtisadi Birliyinə (AİB) və Avropa Birliyinə eyni vaxtda üzvlüyün mümkün olmadığını başa düşür. Onun sözlərinə görə, Ermənistanın Aİ-yə daxil olması ilə bağlı referendumun vaxtı hələ çatmayıb və məsələni indi səsverməyə çıxarmaq yersiz olardı.

Moskva İrəvanın hərəkətlərini diqqətlə izləyir. Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev bildirib ki, Qərb Ermənistanı Rusiyaya qarşı qoyur və Brüssel İrəvan onun üçün maraqsız olan kimi ona arxa çevirəcək.

Paşinyan Ermənistanı Şərq və Qərb arasında bir növ əlaqələndirici kimi təqdim etməyə çalışır. O, AİB ölkələri ilə əməkdaşlığın inkişaf etdirilməsinin Ermənistanın xarici və iqtisadi siyasətinin prioriteti olaraq qaldığını və yeni hökumətin proqramına daxil edildiyini vurğulayıb. Eyni zamanda, Ermənistan lideri Ermənistanın Qərblə əlaqələrini gücləndirməsi səbəbindən Ermənistan ixracına məhdudiyyətlər tətbiq edən Rusiya ilə münasibətləri gərginləşdirmək istəmir. Lakin Nikol Paşinyanın Bakı və Ankara ilə dialoqa hazır olması, onların arazilərindən Qərb ölkələri ilə əlaqələri inkişaf etdirmək üçün istifadə etmək istəyini göstərir. ABŞ prezidenti Donald Trampın vasitəçiliyi ilə sülh müqaviləsinin imzalanmasının ildönümü münasibətilə Ermənistan xalqına müraciətində Paşinyan bildirib: "TRIPP (Trampın Beynəlxalq Sülh və Rifaha Yolu) layihəsi Vaşinqtonda keçirilən görüşün əsas nəticələrindən biri olub. Yaxın gələcəkdə bu, Ermənistanın təcriddən çıxmasına və Ermənistan və regional iqtisadiyyatlar üçün inkişafın vacib hərəkətverici qüvvəsinə çevrilməsinə kömək edəcək. Bu layihə Ermənistan və Azərbaycanın bir-birini manеə kimi deyil, tərəfdaş və qonşu kimi qəbul etməsinə kömək edəcək. Biz tezliklə TRIPP layihəsinin praktiki icrasına başlayacağıq və bu, böyük regional və beynəlxalq tədbir olacaq".

***V.VƏLİLİ***

SON SƏHİFƏ

SƏS

14 avqust
2026-cı il

# Xarici dil öyrənmək üçün ən uyğun yaş hansıdır?



ARAŞDIRMA

## Uşaqlarda dil inkişafının xüsusiyyətləri

***Xarici dil bilmək müasir dövrdə uşaqların təhsil və gələcək peşə imkanlarının genişlənməsinə mühüm töhfə verən bacarıqlardan biri hesab olunur. Xüsusilə erkən yaşlarda xarici dillə təmas uşağın fonetik eşitmə, söz ehtiyatı və kommunikasiya bacarıqlarının inkişafına təsir göstərə bilər. Bəs uşaqlar xarici dil öyrənməyə neçə yaşından başlamalıdır? Erkən yaşda dil tədrisi necə təşkil olunmalıdır və valideynlər hansı məqamlara diqqət etməlidirlər? SİA mövzu ilə bağlı araşdırma aparıb.***

### Xarici dil öyrənməyə neçə yaşdan başlamaq olar?

Dil öyrənmək üçün konkret və dəyişməz yaş həddi yoxdur. Bununla belə, erkən uşaqlıq dövrü dil mənimsənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Uşağın beynində bu dövrdə yüksək neyroplastiklik müşahidə olunur və o, müxtəlif səsləri, intonasiyaları və dil strukturlarını daha asan mənimsəyə bilir. Xüsusilə 0-7 yaş aralığı xarici dillə təbii şəkildə tanışlıq üçün əlverişli dövr hesab olunur. Lakin bu, uşağın məhz həmin yaşlarda formal dil kursuna başlamasının məcburi olduğu anlamına gəlmir. Əsas məsələ uşağın yaşına, psixoloji xüsusiyyətlərinə və maraqlarına uyğun metod seçilməsidir.

### 0-3 yaş: dilə ilkin məruzqalma dövrü

Erkən uşaqlıq mərhələsində uşaqlar dili əsasən dinləmə və təqlid yolu ilə mənimsəyirlər. Bu dövrdə beyin müxtəlif səslərə və intonasiyalara xüsusilə həssas olur. Uşaq bir neçə dillə eyni vaxtda təmasda olduqda onları tədricən fərqləndirməyi öyrənə bilər. Valideynlərin uşaqlarla danışması, mahnılar oxuması, nağıllar danışması və gündəlik həyatdakı sadə ifadələri xarici dildə təqdim etməsi dil inkişafını dəstəkləyə bilər.

### 3-7 yaş: aktiv dil inkişafı

Məktəbəqədər dövrdə uşağın danışıq qabiliyyəti daha intensiv inkişaf edir. Bu mərhələdə xarici dilin oyun, mahnı, şəkil, hekayə və digər interaktiv vasitələrlə öyrədilməsi daha effektiv ola bilər. Uşağı uzun müddət qrammatika qaydalarını əzbərləməyə məcbur etməkdənsə, dili gündəlik ünsiyyət və oyun vasitəsilə təbii şəkildə mənimsətmək daha məqsədəuyğundur.

7-12 yaş: sistemli tədris mərhələsi

İbtidai məktəb dövründə uşaqlar artıq dilin strukturunu və qrammatik qaydalarını daha şüurlu şəkildə mənimsəyə bilirlər. Bu mərhələdə xarici dilin sistemli şəkildə tədrisinə başlanılması və ya mövcud dil biliklərinin inkişaf etdirilməsi mümkündür. Danışıq klubları, yaşa uyğun kitablar, filmlər, mahnılar və interaktiv tapşırıqlar uşağın xarici dillə təmasını artırmağa kömək edə bilər.

### 12 yaşdan sonra dil öyrənmək mümkündürmü?

12 yaşdan sonra da xarici dil öyrənmək tamamilə mümkündür. Yaş artdıqca müəyyən fonetik və qrammatik xüsusiyyətlərin mənimsənilməsi daha çox şüurlu öyrənmə və təcrübə tələb edə bilər. Lakin motivasiya, müntəzəm məşğələ və dil mühiti bu prosesi əhəmiyyətli dərəcədə dəstəkləyir. Bu səbəbdən "müəyyən yaşdan sonra xarici dil öyrənmək mümkün deyil" yanaşması elmi baxımdan doğru hesab edilmir. İnsan istənilən yaşda yeni dil öyrənə bilər.

### Erkən yaşda xarici dil təhsili necə təşkil edilməlidir?

Mütəxəssislərin diqqət çəkdiyi əsas məqamlardan biri uşağın motivasiya və marağının nəzərə alınmasıdır. Valideynin istəyinə görə uşağı dil öyrənməyə məcbur etmək onun prosesə münasibətinə mənfi təsir göstərə bilər.

Uşağın psixoloji rahatlığı və öyrənmə prosesindən zövq alması əsas şərtlərdən biridir. Hər bir uşağın maraq və bacarıqları fərqlidir. Bir uşaq dillərə, digəri riyaziyyata, musiqiyə və ya idmana daha çox maraq göstərə bilər. Buna görə də xarici dil öyrənilməsi uşağın fərdi xüsusiyyətləri nəzərə alınmaqla təşkil edilməlidir.

### Uşağın maraqlarından istifadə etmək

Xarici dilin gündəlik fəaliyyətlərə inteqrasiyası öyrənmə prosesini asanlaşdıra bilər. Məsələn, musiqiyə marağı olan uşağa yaşına uyğun xarici dildə mahnılar dinlətmək, kitaba maraq göstərən uşağa sadə xarici dilli hekayələr təqdim etmək mümkündür. Gündəlik həyatda da sadə söz və ifadələrdən istifadə edilə bilər. Məsələn, uşağa süd verilərkən həmin sözün xarici dildə qarşılığı söylənilə bilər. Bu üsul sözlərin real situasiya ilə əlaqələndirilməsinə imkan yaradır.

### Oyun ən effektiv vasitələrdən biridir

Uşaqlarda dil öyrənmənin əsas vasitələrindən biri oyundur. Xarici dildə sual-cavab oyunları, şəkillərlə tapşırıqlar, mahnılar və interaktiv fəaliyyətlər uşağın həm diqqətini cəlb edir, həm də yeni sözlərin yadda saxlanılmasını asanlaşdırır. Belə yanaşma dil öyrənməni məcburi tədris prosesindən uşağın zövq aldığı fəaliyyətə çevirə bilər.

### Xarici dilli kontentdən necə istifadə etmək olar?

Cizgi filmləri, mahnılar və uşaqlar üçün hazırlanmış xarici dilli videolar dilə məruzqalmanı artıran vasitələrdən biri ola bilər. Uşaq ilk mərhələdə bütün sözləri başa düşməsə də, müxtəlif səslərə, tələffüzə və intonasiyaya alışa bilər. Lakin ekran qarşısında keçirilən vaxt uşağın yaşına uyğun məhdudlaşdırılmalı və xarici dil öyrənilməsi yalnız ekran istifadəsi ilə məhdudlaşmamalıdır.

### Dil öyrənmə proqramlarından istifadə

Müasir texnologiyalar da uşaqların xarici dil öyrənməsində əlavə vasitə kimi istifadə oluna bilər. Müxtəlif tətbiqlər oyun, mahnı, interaktiv tapşırıq və danışıq məşqləri vasitəsilə söz ehtiyatının və dinləmə bacarıqlarının inkişafına kömək edə bilər. Bu məqsədlə ABC Kids, Duolingo, FluentU, Lingokids, PBS Kids, ABCmouse, Memrise, Super Simple Songs və Busuu kimi platformalardan yaşa və uşağın səviyyəsinə uyğun olanlar seçilə bilər.

Lakin tətbiqlər müəllim və ya canlı ünsiyyəti tam əvəz etməməlidir. Dilin effektiv mənimsənilməsi üçün dinləmə ilə yanaşı danışıq, oxu və yazı bacarıqlarının da inkişaf etdirilməsi vacibdir.

Valideynlərin əsas məqsədi uşağı xarici dil öyrənməyə məcbur etmək deyil, onun üçün davamlı, maraqlı və yaşına uyğun dil mühiti yaratmaq olmalıdır. Müntəzəm məşğələ, canlı ünsiyyət, oyun, kitab, musiqi və digər uyğun vasitələrin birgə istifadəsi dil öyrənmə prosesinin daha effektiv təşkilinə kömək edə bilər.

***Ayşən Vəli***

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur

Tiraj: 2000